AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU

ISSN 2663-4414 (Print)
ISSN 2709 – 0762 (E-Print)

# MÜQAYİSƏLİ ƏDƏBİYYATŞÜNASLIQ

BEYNƏLXALQ ELMİ JURNAL



**AZƏRBAYCAN-ÖZBƏK ƏDƏBİ ƏLAQƏLƏRİ**
XÜSUSİ BURAXILIŞ

## COMPARATIVE LITERATURE STUDIES

**INTERNATIONAL SCIENTIFIC JOURNAL**
SPECIAL ISSUE

**BAKI – 2020, № 1**

# Məhtimqulu Fəraqi və Əlişir Nəvai

**İsmixan Osmanlı**
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: iosmanli59@yahoo.com
https://orcid.org/0000-0002-9246-4712

**Annotasiya.** Türk dünyasının mütəfəkkir şairi Əlişir Nəvai (1441-1501) hələ sağlığında öz ədəbi məktəbini yaratmış görkəmli bir sənətkardır. Bu məktəbin yüzlərlə yetirməsi ustad şairin ədəbi irsindən yaradıcılıqla bəhrələnərək, gözəl ədəbi nümunələr yaratmışlar. Türkmən xalqının klassik şairi Məhtimqulu Fəraqi də hələ gənclik illərindən Nəvai yaradıcılığından ilhamlanaraq rəngarəng ədəbi nümunələri ilə öz dövrünün böyük sənətkarları sırasında ədəbi yerini tutmuşdur. Bu gün də türk dünyası klassik şairləri arasında bənzərsiz yaradıcılığı ilə seçilən Məhtimqulunun həm lirik, həm də kiçikhəcmli epik yaradıcılığında Nəvai irsinin təsiri aydınca hiss edilməkdədir. Bu məqalə Nəvai irsinin Məhtimqulunun ədəbi yaradıcılığına təsirinin tədqiqinə həsr edilmişdir. Müəllif bu təsiri hər iki şairin yaradıcılığından nümunələrlə göstərməyə çalışmışdır.
**Açar sözlər:** Əlişir Nəvai, Məhtimqulu Fəraqi, lirik şeir, epik yaradıcılıq, ədəbi təsir

http://dx.doi.org/10.29228/edu.155
**Məqaləyə istinad:** Osmanlı İ. (2020) *Məhtimqulu Fəraqi və Əlişir Nəvai.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 164-174
**Məqalə tarixçəsi:** göndərilib – 08.06.2020; qəbul edilib – 22.06.2020

# Magtymguly Pyragy and Alishir Navoi

**Ismikhan Osmanli**
Doctor of Philosophy in Philology, Institute of Literature named
after Nizami Ganjavi. Azerbaijan.
E-mail: iosmanli59@yahoo.com
https://orcid.org/0000-0002-9246-4712

**Abstract.** The thinker-poet of the Turkic world Alisher Navoi (1441-1501) is a prominent figure who founded his own literary school during his lifetime. Hundreds of students of this school benefited from the literary heritage of this master poet, created beautiful literary examples. The classical poet of the Turkmen people, Magtymguly Pyragy, was inspired by Navoi's works from his youth and took a literary place among the great artists of his time with his literary works. Today, the influence of Navoi's heritage is clearly felt in both lyrical and epic works of Magtymguly, who is distinguished among the classical poets of the Turkic world for his unique work.
This article is dedicated to the study of the influence of Navoi's heritage on Magtymguly’s creativity. The author has showed this influence with examples taken from the works of both poets.

**Keywords:** Alishir Navoi, Magtymguly Pyragy, lyric poetry, epic creativity, literary influence

http://dx.doi.org/10.29228/edu.155
**To cite this article:** Osmanli I. (2020) *Magtymguly Faragi and Alishir Navai.* «Comparative Literature Studies», Issue I, pp. 164-174
**Article history:** received – 08.06.2020; accepted – 22.06.2020

## Giriş / *Introduction*

Türk dünyasının mütəfəkkir şairi Əlişir Nəvainin (1441-1501) əsərləri həm öz sağlığında, həm də özündən sonrakı türk dünyasının məşhur şairlərinin yaradıcılığına güclü təsir etmişdir. Böyük bir nəsil bu dahi söz ustadının ölməz poeziyasının təsiri ilə gözəl ədəbi nümunələr yaratmışdır. Türkmən klassik ədəbiyyatının bir çox görkəmli nümayəndələri də Nəvai yaradıcılığına dərin məhəbbət bəsləmiş, onun yaradıcılıq irsindən faydalanmışlar. Nəvaidən əsrlər sonra yazıb-yaratmış tanınmış türkmən şair və mütəfəkkirləri – Nurmühəmməd Əndəlib (1660-1740), Dövlətməmməd Azadi (1700-1760), Məhtimqulu Fəraqi (1724-1807), Mahmud Qaibi (1735-1810), Seyidnəzər Seyidi (1768 - 1830), Qurbandurdu Zəlili (1800-1852) və Molla Nəfəs (1810-1872), Oraz Aşiqi (1825-1870) Nəvainin yaradıcılığına dərindən bələd olmuş, bəziləri isə onun şeirlərinə təxmislər yazmışlar. Nəvainin ədəbi irsi türkmən ədəbiyyatının məşhur simalarından olan Məhtimqulu Fəraqinin poeziyasına xüsusilə güclü təsir etmişdir.

## Əsas hissə / *Main part*

Məhtimqulu Fəraqi ilk təhsilini atası, klassik türkmən şairi Dövlətməmməd Azadidən almışdır. Onun Nəvai yaradıcılığı ilə ilk tanışlığı da bu vaxtdan başlamışdır. Belə ki, atası Azadi dövrünün məşhur şairi idi və Xivədə “Şirqazi” mədrəsəsində yüksək təhsil almışdı. Özbək dilini də yaxşı bilirdi. Bir qayda olaraq, həmin mədrəsənin məzunları türk və Şərq dünyasının bir çox görkəmli şairlərinin mədrəsədə tədris olunan əsərlərinin və ya mədrəsənin kitabxanasında olan başqa əsərlərin üzünü köçürüb özləri ilə vətənlərinə aparırdılar. Tədqiqatçılar tərəfindən müəyyən edilmişdir ki, Azadi də Nəvainin əsərlərinin əksəriyyəti ilə tanış idi, daha doğrusu onda böyük sənətkarın külliyatı olmuşdur. O özünün məşhur “Vəğzi-Azadi” adlı əsərini Nəvainin “Heyrət ül-əbrar” əsərinin təsiri ilə yazmışdır [1, s.294]. Onun başqa əsərlərində də Nəvainin “Xəzain ül-məani”, “Məhbub ül-qülub” və başqa əsərlərinin təsiri hiss edilir [1, s.295-296]. Bütün bunlar güman etməyə əsas verir ki, Məhtimqulunun Nəvainin yaradıcılığı ilə ilk tanışlığı atasından aldığı ibtidai təhsil illərində baş vermişdir.

Dövlətməmməd Azadi Məhtimquluya ilk təhsil verdikdən sonra onu Niyaz Salih adlı müəllimin yanına göndərmişdir. Sonra o, XVIII əsrin inkişaf etmiş ən mədəni mərkəzlərində – əvvəlcə Türkmənistanın Xalac ətrafındakı Qızılayaq kəndində yerləşən İdris Baba mədrəsəsində təhsil almışdır. Gənclik illərində Şərqdə elm və mədəniyyət mərkəzlərindən biri kimi tanınan Buxaraya getmiş və oradakı “Kükəldaş” mədrəsəsində təhsilini davam etdirmişdir. Daha sonra Xivəyə getmiş və orada üç il, 1756/57-1760-cı illərdə “Şirqazi xan” mədrəsəsində yüksək təhsil almışdır [2, s.94-135].

Məhtimqulu Buxara və Xivə mədrəsələrində təhsil aldığı illərdə tələbələrə həmin mədrəsələrdə türk dünyasının böyük şairlərindən Şeyx Nizami Gəncəvinin, İmadəddin Nəsiminin, Əlişir Nəvainin, Məhəmməd Füzulinin yaradıcılığı tədris edilirdi. H.Xanıkov Buxara mədrəsəsində oxudulan 13 kitabın, o cümlədən türk dilində olan aşağıdakı beş kitabın adını çəkir: “Divani-Fizuli”, Əlişir Nəvainin “Lisan üt-teyr”, “Divani-əmiri-Nəvai”, “Hüveyda”, “Qisseyi-divani-Məşrəb” [3, s.211].

Görkəmli türkmən alimi B.A.Qarrıyev Əlişir Nəvainin Məhtimquluya təsiri barədə yazmışdır: "Məhtimqulunun Mirəli Şir Nəvaini tanıması və onun bütün yaradıcılığı ilə tanış olduğu, onun yaradıcılığının təsirində olması şəksizdir, çünki Məhtimqulu kimi böyük şairin onu tanımaması heç mümkün deyil. Ondan başqa qədim dövrlərdə türkmən məktəblərinin hamısında Nəvainin "Çar divan"ını stabil oxu kitabı kimi keçildiyinə görə onu Məhtimqulunun da oxuduğu sözsüzdür. Beləliklə, Nəvainin Məhtimquluya hər tərəfdən yaxşı təsir etdiyini Məhtimqulunun humanist əsərlərində, Nəvainin əsərlərini yaradıcılıqla təqlid etməyində və onun öz ana dilini – türkmən dilini sevməsində (Nəvainin "Mühakimət ül-lüğəteyn"ini yada salın) axtarmalıyıq" [4, s.42]. Məhtimqulunun özü də dönə-dönə əsərlərini mütaliə etdiyi Şərq və türk dünyasının klasssikləri arasında Əlişir Nəvainin adını hörmətlə yad etmişdir. O, "San olsam" ("San bolsam") adlı şeirində Nəvaini "ustad" deyə yad etmiş və onun "Çar divan"ını, "Fərhad-Şirin" poemasını və rübailərini oxuduğunu göstərmişdir:

*Əbu Seyid, Ömər Xəyyam, Həmədani,*
*Firdovsi, Nizami, Hafiz pərvanı,*
*Cəlaləddin Rumi, Cami əlvanı,*
*Onların yerində mənəm kən olsam.*

*Daməqandan gedən ustad Nəvai,*
*"Çar divan"ı, "Fərhad-Şirin", rübai,*
*Zahirəddin Babur "Mizan ül-əvzanı",*
*Qarşılarına gedib mən Məcnun olsam.*

*Oxuyub bildim Sədinin mən "Bustan"ını,*
*Gör, nə əcəb Xaqaninin "Mədain"ini,*
*İstərəm "Şahnamə", "Saqinamə"ni,*
*Xəlifə Ömər ilə Süleyman olsam [5, s.68-69].*

Məhtimqulu "Xunlar tökərlər gözündən" ("Hunlar dökerler gözünden") adlı başqa bir şeirində yenə də Nəvainin adını Nizami, Firdovsi ilə bir yerdə çəkmişdir:

*Dərdlilər dərdimi görsə, utanarlar özündən,*
*Təbib əhli çarə tapmaz, xunlar tökərlər gözündən.*

*...Eşitsə Nəvai, Nizami, Firdovsi qılan zarım,*
*Tərki-dünya eyləyib, hamısı keçər sözündən [5, s.159-160].*

Şair "Gələndir" ("Gelendir") adlı başqa bir şeirində isə Əlişir Nəvainin adını Şeyx Füzuli və Hüseyn Bayqara ilə bir cərgədə çəkmişdir:

*...Ol şeyxi Füzuliyə sözüm olsa bərabər,*
*Soltani-Hüseyin, Mir Əlişir dünyada davağər,*
*Fərhad ilə Şirin, Leyli ilə Məcnun dilavar,*
*Bar yurdu gəzib, seyri-Xorasana gələndir [6, s.403].*

Əvvəlcədən qeyd etmək lazımdır ki, Məhtimqulunu Nəvaiyə bağlayan əsas səbəblərdən biri mütəfəkkir şairin ecazkar poeziyası idisə, digər bir səbəb isə hər ikisinin eyni fəlsəfi dünyagörüşə malik olmaları idi. Onların hər ikisi sufizmin nəqşibəndilik təriqətinin üzvləri idi.

Böyük Nəvai öz dövründə sufizmin nəqşibəndilik təriqətinin tanınmış davamçılarından olmuşdur. Mürşidi, bu təriqətin banisi, görkəmli sufi şeyxi Xacə Məhəmməd Bəhaəddin Nəqşbəndiyə

hörmət əlaməti olaraq özünün "Nəsayim ül-məhəbbət" (1496) əsərində onun haqqında daha geniş məlumat vermişdir [7, s.133-135].

Məhtimqulu da Nəqşibəndi təriqətinə ruhən bağlı olmuşdur. Şairin bu sufi təlimi ilə gecə-gündüz məşğul olduğunu "Divanə gəldi" adlı şeirində daha qabarıq şəkildə göstərmişdir:

*Bir gün yatırdım şah Nəqşibəndi*
*Bəhaəddin adlı divanə gəldi.*
*Əsasın sürüyüb gəlmiş Buxaradan,*
*Haqq işığında məsti-məstanə gəldi [8, s.184].*

Hətta şair öz şeirlərində yaradıcılıq ilhamını Bəhaəddin Nəqşibəndidən aldığını göstərmişdir:

*Bir gecə yatırdım şah Nəqşibəndi*
*Kərəmi cuş eyləyib, bir nan gətirdi.*
*Sağ əlində gülgün badə şərabı,*
*Sol əlində təzə biryan gətirdi [8, s.185].*

Məhtimqulu "Oyan dedilər" adlı məşhur şeirində yenə də Nəqşibəndi şəxsiyyətinə vurğunluğunu dilə gətirmişdir:

*Ol Bəhaəddindir, o həm bir ərdir,*
*Biri Zəngi Baba – o da namdardır... [5, s.13]*

Əsərlərindən məlum olur ki, Məhtimqulu mürşidi-piri olaraq Bəhaəddin Nəqşibəndinin təlimini seçmişdir. Hətta Bəhaəddin Nəqşibəndinin tərcümeyi-halını dərindən öyrəndiyi onun şeirlərindən də məlum olur. O, "Badi-səbanı görsəm" ("Bady-sabany görsem") adlı şeirində

*Bəhaəddin, Mir Külal,*
*Zəngi Babanı görsəm, –*

deyib Bəhaəddin Nəqşibəndinin Səmərqənddə dini elmləri öyrəndiyi, dövrün məşhur ülamələrindən olan ustadı Baba Səmmasinin ölümündən sonra ona ruhi tərbiyə vermiş Əmir Külalın adını çəkir [5, s.247].

Beləliklə, eyni fəlsəfi dünyagörüşə malik olmaları, onlar arasında fəlsəfi fikir və ideya yaxınlığı da Əlişir Nəvainin Məhtimqulu Fəraqi yaradıcılığına təsir etməsinə səbəb olmuşdur. Məhz bu səbəbdəndir ki, Məhtimqulu yaradıcılığında Nəvainin sufi məzmunlu fəlsəfi əsərlərininin təsiri daha çox hiss edilir.

Məhtimqulu kiçikhəcmli mənzum əsərlərini yazarkən, Əlişir Nəvai irsindən faydalanıb qiymətli mənzum əsərlər yazmışdır. Bu mənada yaradıcılığının bütövlükdə sənətkarlıq məziyyətlərini səciyyələndirən "Can içində" və "İçində" adlı alleqorik səpkidə yazılmış poemaları onun mənzum əsərləri içərisində xüsusi yer tutur. Sanki bir-birinin davamı olan bu poemaların qəhrəmanları quşlardır. Heç şübhəsiz, Məhtimqulu Fəraqi şair kimi püxtələşdiyi bir dövrdə qələmə aldığı bu əsərlərini Əlişir Nəvainin "Lisan üt-teyr" ("Quşların dili") əsərindən təsirlənərək yazmışdır. Bununla belə, qeyd etmək lazımdır ki, o özündən əvvəl bu mövzuda yazmış orta əsrin məşhur sufi fars şairi və mütəsəvvüfü Şeyx Fəridəddin Əttarın (1141-1221) farsca yazdığı "Məntiq üt-teyr" ("Quşların dili" və yaxud "Uçmağın məntiqi") adlı əsərindən də faydalanmışdır. Eyni zamanda Ziyaəddin Nəqşəbinin fars dilində yazdığı məşhur "Tutinamə" adlı alleqorik əsəri (1330) də hələ orta yüzillərdə bir sıra dillərə, həmçinin türkmən dilinə də tərcümə olunmuşdu. Mümkündür ki, Məhtimqulu Fəraqinin bu əsərdən də xəbəri olmuş və ondan da faydalanmışdır.

Məhtimqulu Fəraqinin həmin əsərlərinin təhlili göstərir ki, o, əsasən Nəvai yaradıcılığından bəhrələnmişdir və adları çəkilən poemalarını bilavasitə onun "Lisan üt-teyr" ("Quşların dili") əsərinin təsiri ilə yazmışdır. Hər iki şairin əsərlərinin müqayisəsi göstərir ki, Məhtimqulu Fəraqi "Lisan üt-teyr"in yazıldığı çağatay türkcəsini kifayət qədər yaxşı bildiyindən, Nəvainin əsərini orijinaldan mütaliə etmişdir. Belə ki, o, Buxarada "Kükəldaş mədrəsəsi"ndə və Xivədəki "Şirqazi xan mədrəsəsi"ndə öz dövrü üçün yüksək təhsil alarkən, çağatay türkcəsini mükəmməl öyrənmişdi və Əlişir Nəvainin yaradıcılığı ilə yaxından tanış olmuşdu [9, s.64]. Lakin görünür, Məhtimqulu Nəvainin "Lisan üt-teyr" ("Quşların dili") əsəri ilə tanış olana kimi, öz poemalarını yazmağa başlamamış və uzun zaman buna hazırlaşmışdır [9, s.83]. Şair poemalarını yazana qədər Nəvainin həmin əsərinin təsiri ilə bir neçə şeir də yazmışdır. Məsələn, Əlişir Nəvai həmin əsərində müqəddəs Kəbənin şeyxlər şeyxi Sənan və xristian gözəli ilə bağlı epizod yerləşdirmişdir. Məhtimqulu özünün "Yar səndən" adlı şeirini poemanın həmin hissəsinin təsiri ilə yazmışdır:

*Şeyx Sənan tək dərin kədərə ulansam,*
*Şibli kimin toz-torpağa bulansam,*
*Kəbəyə gedib yeddi dəfə dolansam,*
*Ya Rəbb, xəbər bilərəmmi, yar, səndən? [11, s.161-162]*

Başqa bir misal. Məhtimqulunun ayrı-ayrı şeirlərində Əlişir Nəvainin "Lisan üt-teyr" adlı əsərində adları çəkilən müqəddəslərin – Üveys Qarani, Zünnub əl-Misri, Əbu Yezid Bistəmi, Əbu Səid Məxneyi, Mənsur ibn əl-Xallac, Bəhaəddin Nəqşibəndinin adları çəkilir.

Bundan başqa, Məhtimqulu "Seyranda", "Tili senalı quşlar", "Nalış kılsam quşlar bile" və bir çox başqa şeirlərində quşların xasiyyətlərindən bəhs edir. Beləliklə, bu və ya digər oxşarlıqlar Məhtimqulu Fəraqinin Əlişir Nəvainin "Lisan üt-teyr" adlı əsəri ilə yaxından tanış olduğunu, "Can içində", "İçində" adlı poemalarını onun həmin əsərinin təsiri ilə yazdığını sübut edir [10, s.81-82]. Başqa bir dəlil isə, Əlişir Nəvainin əsərində adıçəkilən 20 quşdan Məhtimqulunun "Can içində" poemasında 10-unun adının çəkilməsidir [10, s.83].

Məhtimqulunun mənzum əsərləri Fəridəddin Əttarın "Məntiq üt-teyr" və Əlişir Nəvainin bu əsərə yazdığı "Lisan üt-teyr" adlı nəzirəsindən həm həcmcə, həm də məzmunca çox fərqlidir. Əttarın məsnəvi formasında yazdığı "Məntiq üt-teyr" əsəri 4400 beytdən artıq, Əlişir Nəvainin "Lisan üt-teyr" əsəri 3598 beytdir. Məhtimqulu Fəraqinin "Can içində" poemasındakı bəndlərin sayı Türkmənistanda nəşr edilmiş əsərlərində müxtəlifdir: Onun 1983-cü ildə Aşqabadda nəşr edilmiş "Seçilmiş əsərləri"ndə 68 beyt, 290 illik yubileyi ilə əlaqədar nəşr edilmiş ikicildlik "Seçilmiş əsərləri"nin birinci cildində 56 beyt, Bakıda tapılmış son "Divan"ında isə cəmi 50 beytdir. Əsərdəki bəndlərin müxtəlif sayda olmasının səbəbi şairin əsərlərinin müxtəlif illərdə yaddaşlardan toplanması ilə əlaqədardır. Şairin Bakıda tapılmış son "Divan"ı tədqiqatçılar tərəfindən daha mükəmməl hesab edildiyindən, poemanın cəmi 25 bənd – 50 beytdən ibarət olduğunu söyləmək olar.

Şairin "İçində" poeması isə 15 bənd – 30 beytdir. Poemaların həcminin az olmasına baxmayaraq, Məhtimqulu Fəraqi də sələfləri kimi alleqoriyanın geniş imkanlarından yaradıcılıqla bəhrələnərək, öz fikrini çatdıra bilmişdir.

Əvvəldə dediyimiz kimi, hər üç sənətkarı əqidə etibarı ilə birləşdirən sufizm idi və hər biri öz əsərində sufi ideyalarını təbliğ etmişdir. Əgər Fəridəddin Əttar "Məntiq üt-teyr" əsəri vasitəsilə təsəvvüfün vəhdəti-vücud nəzəriyyəsini irəli sürürdüsə, Əlişir Nəvai "Lisan üt-teyr" əsərində başda müdrik hökmdar olmaqla, ədalətli cəmiyyət yaratmaq fikrini irəli sürmüşdür. Məhtimqulu Fəraqi "Can içində" poemasında

*Nəfsin deyər: "Xoş olsam,*
*Göyçəklərə tuş olsam,*
*Yesəm-içsəm, xoş olsam,*
*Yatsam eyvan içində", –*

deyə [8, s.358] gününü eyş-işrətdə keçirmək istəyən insanları haqqa-ədalətə, doğru yola çağırmışdır:

*Gedən yolun bilməsən,*
*Doğru yola gəlməsən,*
*Haqqı yada salmasan,*
*Qaldın arman içində [8, s.358].*

Məhtimqulu Fəraqinin poeması Əlişir Nəvainin poemasından fərqli olaraq, sırf sufi məzmunlu deyil. Onun poemasında quşların – simvolik obrazların timsalında insanların ətraf aləmi dərk etməsi ön plana çəkilir və onlardakı yaxşı cəhətlər tərənnüm edilir [10, s.83]. Onun yaradıcılığında bu cür fərqin olması da təbiidir, çünki Məhtimqulunun məqsədi Nəvainin qabaqcıl ictimai-siyasi görüşlərini təkrarlamaq deyil, onları öz dövrünün şəraitinə uyğun olaraq daha da inkişaf etdirmək olmuşdur. Bu cəhətdən onun əsərlərində feodal müharibələrinə son qoyulması, mərkəzləşdirilmiş dövlətin yaradılması, ədalətli hökmdar məsələləri və s. daha xarakterikdir [12, s.9].

Şairin kiçikhəcmli "İçində" poemasında da bir neçə yırtıcı heyvanın, quşların, ev heyvanlarının xasiyyətləri haqqında alleqorik formada, yəni onların öz dilləri ilə qısaca məlumat verilir. Məhtimqulu bu iki poemasında iştirak edən quşların, heyvanların həyat tərzini olduqca düzgün təsvir etmişdir. "İçində" adlı poemada bülbül özü haqda deyir:

*Bülbül deyər: "Can-tənim,*
*Bağ içində hər günüm,*
*Məclisdədir məskənim,*
*Sayrayıb, reyhan içində" [8, s.363-364].*

"Can içində" poemasında durnalar qışda soyuqlar düşəndə isti ölkələrə, o cümlədən Hindistana uçub getdiklərini bildirirlər:

*Durna deyir: "Pər açaram,*
*Bağdad suyun içərəm,*
*Qış Hindistana göçərəm,*
*Laləzaran içində" [8, s.359].*

Beləliklə, bu poemalarındakı təsvirlər, bir daha təsdiq edir ki, Məhtimqulu onları yazana qədər uzun müddət quşların, ev heyvanlarının, vəhşi heyvanların həyat tərzini, xasiyyətlərini ətraflı öyrənmiş və sonra poemalarını qələmə almışdır. Şairin bir çox şeirləri də təsdiq edir ki, o, daim təbiətlə təmasda olmuş, böyük zəhmət hesabına təbiətdəki heyvanların həyatlarını öyrənmiş və öyrəndiklərini şeirlərində əks etdirmişdir [13, s.65-72]. "Seyran içində", "Badi səbanı görsəm", "Daşlar ilə", "Seyranda", "Dili sənalı quşlar" və s. şeirləri bunun ən bariz nümunələridir. "İçində", "Can içində" adlı poemalarında olduğu kimi, şairin bu və digər şeirlərində quşların xasiyyətlərinin təsviri əsas mövzudur. Tədqiqatçı R.Mustakovun fikrincə, dünyanı dərketmə və optimist notlarla zəngin bu şeirlərini şair mədrəsədə oxuduğu illərdən sonra yazmışdır [10, s.82]. Fikrimizcə, bu sözləri Məhtimqulunun "İçində", "Can içində" adlı poemalarına da aid etmək olar.

Əlişir Nəvai ədəbi irsi Məhtimqulu Fəraqinin kiçikhəcmli poemalarına olduğu kimi, lirik yaradıcılığına da güclü təsir etmişdir. Bu təsir özünü hər iki mütəfəkkir şairin ideya yaxınlığında, həm də eyni mövzuya münasibətlərində göstərir. Əlişir Nəvainin Məhtimqulu Fəraqinin lirik yaradıcılığına təsirindən bəhs etməmişdən əvvəl bir məsələ haqqında fikir bildirmək istərdik. Demək olar ki, bu mövzuya Özbəkistan və Türkmənistan alimlərinin əksəriyyətinin araşdırmalarında – elmi məqalələ-

rində, dissertasiya işlərində, monoqrafiyalarında, həmçinin iki qardaş xalqın ədəbi əlaqələrindən bəhs edən tədqiqat əsərlərində geniş yer verilib. Əksər tədqiqatçılar Nəvaiyə aid etdikləri

*Odam borki, odamlarninq naqşıdir,*
*Odam borki, hayvan undan yaxşıdır –*

məşhur aforizmi nümunə göstərirlər və Məhtimqulu Fəraqinin bu misraların təsirindən yaranmış

*Adam bardyr, ony şalar çagyrdar,*
*Adam bar, zulm edip, garyp agyrdar –*

beytini göstərirlər [14, s.10; 15, s.29; 16, s.51]. Bu tədqiqatlarda diqqəti çəkən məqamlardan biri də odur ki, tədqiqatçılar həmişə Məhtimqulu Fəraqinin yaradıcılığından nümunə gətirdikləri həmin beytlərin mənbəyini göstərirlər, Nəvaiyə aid etdikləri aforizmlərin (iki misranın) onun hansı şeirindən olduğunu, hansı kitabında olduğunu göstərmirlər. Tədqiqatlarda bu cəhət diqqətimizi cəlb etdi və Nəvainin külliyyatında bu misraları axtarmalı olduq. Bu beytləri Nəvainin heç bir əsərindən tapa bilmədik. Yeri gəlmişkən qeyd edək ki, Nəvainin hikmətlərinin toplanıb nəşr edilmiş 1968-ci il [17] və 2019-cu il [18] mötəbər nəşrlərdə də göstərilən beytlər yoxdur. Əgər həmin beytlər Nəvaiyə aid hikmətli söz (aforizm) olsa idi, müəlliflər onları həmin nəşrlərə salardılar.

Axtarışlarımız zamanı məlum oldu ki, Nəvainin adına çıxarılan həmin misralar Azərbaycan atalar sözləridir [19] və aşağıdakı bəndin ilk beytidir:

*Adam var ki, adamların naxşıdır,*
*Adam var ki, heyvan ondan yaxşıdır,*
*Adam var ki, dindirərsən "can" deyər,*
*Adam var ki, dindirməsən yaxşıdır.*

Azərbaycanlılar arasında dillər əzbəri olan bu atalar sözləri aşıqların, şairlərin də diqqətini cəlb etmiş, onlar da ondan təsirlənərək gözəl şeirlər yazmışlar. Onlardan XVI əsrin sonları – XVII əsrin əvvəllərində Güney Azərbaycanda yaşayıb yaratmış Azərbaycan aşıq şeirinin görkəmli nümayəndəsi Aşıq Abbas Tufarqanlının "Bəyənməz" rədifli şeiri daha məşhurdur. Bu şeirdə, hətta atalar sözünün iki beyti olduğu kimi öz əksini tapmışdır:

*Adam var ki, adamların naxşıdı,*
*Adam var ki, anlamazdı, naşıdı,*
*Adam var ki, heyvan ondan yaxşıdı,*
*Dindirərsən, heç insanı bəyənməz [20, s.108].*

Araşdırmamız göstərdi ki, Məhtimqulu Fəraqi Abbas Tufarqanlının məhz "Bəyənməz" rədifli şeirindən təsirlənərək gözəl sənət nümunələri yaratmışdır. Bu şeirin təsiri Məhtimqulu Fəraqinin bir çox şeirlərində hiss olunur. Tədqiqatçıların Məhtimqulunun "Dəyməz" rədifli şeirindən nümunə kimi göstərdikləri beytlərin olduğu

*Adam vardır, onu şahlar çağırdar,*
*Adam var, zülm edib, qərib ağırdar,*
*Adam var, pər döşək yanın ağırdar,*
*Adam vardır, ağ kiz dızına dəyməz [5, s.489] –*

bənd də və yenə də onun "Mal yaxşı" adlı şeirində

*Adam qədrin bilməyib gəzən adamdan,*
*Ondan yenə otlayıb gəzən mal yaxşı [5, s.497] –*

və ya "Düyşünə dəyməz" adlı şeirindəki

*Ərlər var – min tümən yedirsən azdır,*
*Adam vardır – yeyən aşına dəyməz [5, s.402] –*

beytləri Abbas Tufarqanlının həmin şeirinin təsiri ilə yazılmışdır. Abbas Tufarqanlının "Bəyənməz" rədifli şeirinin təsiri Məhtimqulu Fəraqinin başqa şeirlərində də hiss olunur. Məsələn, Məhtimqulu Fəraqinin "İli gözlər" adlı şeirindəki

*Kimi nan tapmaz yeməyə,*
*Kimi yer tapmaz qoymağa,*
*Kimi don tapmaz geyməyə,*
*Kimi tirmə şalı gözlər [5, s.273] –*

bəndi də Abbas Tufarqanlının "Bəyənməz" adlı şeirindəki

*Adam var, dolanar səhranı, düzü,*
*Adam var, döşürər gülü-nərgizi,*
*Adam var, geyməyə tapammaz bezi,*
*Adam var, al geyər, şalı bəyənməz –*

bəndi ilə səsləşir.

Bu cür nümunələrin sayını artırmaq da olardı. Amma mövzudan kənar olduğuna görə, gələcəkdə bu mövzuda ayrıca araşdırma da aparmaq olar. Burada əsas məqsədimiz uzun illər Türkmənistan və Özbəkistan ədəbiyyatşünaslığında səhvən Əlişir Nəvaiyə aid edilən şerin əslində Azərbaycan atalar sözü olduğunu göstərmək, Məhtimqulu Fəraqinin lirik yaradıcılığından gətirilən nümunələrin Abbas Tufarqanlının "Bəyənməz" rədifli şeiri ilə səsləşdiyini göstərmək idi.

Məhtimqulu və Navainin yaşadığı dövr çox keşməkeşli, təlatümlü dövr olmuşdur. Feodallar arasında çəkişmələr, müharibələr və onların sadə insanların həyatına etdiyi təsirlər hər iki mütəfəkkir şairin yaradıcılığında öz əksini tapıbdır. Hər iki şairin yaradıcılığının ana xəttini vətənpərvərlik, milli birliyə çağırış, dosta sədaqət və başqa humanist ideyalar təşkil edir. Vəfa, dosta sədaqət mövzusu Nəvainin doğma türk (çağatay) dilində yazdığı şeirlərinin toplandığı dörd divanından ("Çahar divan") ibarət "Xəzayin ul-məani" adlı əsərində – "Gərayib üs-siğər"də ("Uşaqlığın qəribəlikləri") "Dost" rədifli bir qəzəli [21], "Nəvadir üş-şəbab"da ("Gəncliyin nadirlikləri") "Dost" rədifli bir qəzəli [22], "Bədayi ül-vəsət"də ("Orta yaşın gözəllikləri") "Dost" və "Ey dostlar" rədifli iki qəzəli [23] vardır. Məhtimqulu Fəraqinin də "Ey dost" rədifli iki – "Set jan, ey dost" [5, s.150] və "Xəbər, ey dost" [5, s.150-151] qəzəlləri vardır. Məhtimqulunun "Ey dost" rədifli "Xəbər, ey dost" qəzəli məzmunca Nəvainin "Dost" rədifli qəzəlindən fərqlənsə də, forma cəhətdən ona daha yaxındır. Hər iki qəzəldə rədifdən əvvəlki sözlərin də qafiyələnməsi diqqəti cəlb edir.

**Məhtimquluda:**
*Bir səhər düşmüş idi yadıma diyar, ey dost,*
*Can güvşünə yetişdi binagəh xəbər, ey dost.*

*Fəraqi, göz yerindən ağalyıb qan rəvan oldu,*
*Yerinə qaytar onu, gər dəysə, qubar, ey dost [5, s.150-151].*

**Nəvaidə:**
*Qıldı düşmən rəhm, bəs kim qıldı cəbr izhar dost,*
*Ey könül, düşmən tap indi, tutmağıl zinhar dost.*

*Hər zaman düşmənlərim azurdadır, ey dostlar,*
*Bəs ki, hər dəm yetirirəm zora azar dost [22, s.92].*

Məhtimqulunun ülvi məhəbbətdən, sevgililər arasında sədaqətdən, vəfadan bəhs edən və dost kimi sevgilisinin nəzərdə tutulduğu "Ey dost" rədifli "Sət can, ey dost" adlı ikinci qəzəli məzmunca Nəvainin "Qərayib üs-siğər"dəki "Dost" rədifli qəzəlinə daha yaxındır.

**Məhtimquluda:**
*Gözümə hərgiz sənsiz görünməz cahan, ey dost,*
*Nə cahan, bəlkə, təndə olsa gər set can, ey dost…*

*Vəslinə ümid edən üzmüş əlin canından,*
*Çeşmin – cəlladi-cahan, qaşındır kəman, ey dost [5, s.150].*

**Nəvaidə:**
*Vay kim, düşməndək oldu əhdindən biganə dost,*
*Düşmənim öldürsə, əhd etdim ki, tutmayın yanə dost...*

*Zülfünə düşsə Nəvai hali-şövqündən nə tong,*
*Dəmdən yox çarəsi hər quş ki, olar danə dost [21, s.108].*

Məhtimqulunun Nəvaidən təsirlənməsi yalnız məhəbbətdən, sevgidən, vəfadan bəhs edən şeirlərində hiss edilmir. O, başqa məzmunlu şeirlərində də Nəvaidən təsirlənərək eynirədifli gözəl əsərlər yaratmışdır. Məsələn, Nəvainin "Tut", "Olmasa" ("Bolmasa"), "Yaxşıraq" ("Yaqşırak") qəzəllərinin təsiri ilə Məhtimqulu da "Yeldim tut", "Olmasa" ("Bolmasa"), "Yaxşıdır" ("Yaqşıdır") adlı şeirlərini yazmışdır. Nəvainin "Xəzayin ul-məani"nin "Nəvadir üş-şəbab"ında "Tut" rədifli iki [22, s.74-75], "Bədayi ül-vəsət"də isə bir qəzəli vardır [23, s.74]. Məhtimqulu Nəvainin bu qəzəllərinin təsiri ilə "Yeldim tut" qoşmasını yazmışdır [5, s.509-510]. Hər üç əsərin əsas qayəsini dünyada hər şeyin müvəqqəti olduğu, insanların öz istəklərinə uyğun yaşaya bilmədikləri, ölüm-itim və s. məsələlər təşkil edir. Bu zaman hər iki şair bir neçə əfsanəvi və tarixi şəxslərin həyatlarını nümunə göstərirlər. Məhtimqulunun öz şeirində Nəvainin qəzəllərində adları çəkilən şəxslərə üz tutması diqqəti cəlb edir.

**Nəvaidə:**
*Bir ovuç su topmayin olsanq kerak çun taşnalab,*
*Bəhr ila bar fathida özüni Sikandar boldi, tut...*

*Ne Faridundin acar çun koldi, ne Camşiddin,*
*Haşamatinq Camşidu Afridunğa hambar boldi, tut [22, s.74].*

**Nəvaidə:**
*Təxti-cahin kişvəri-mülki Skəndər oldu, tut,*
*Xizr ömri həm bu mülk üzrə müyəssər oldu, tut.*

*Böylə mülkü-ömrdən son cinu, insu, vəhşi təyr*
*Hökmü-əmrinə Süleymandək müsəxxər oldu, tut.*

*Munça həşmət tapmağından sonra hər ədna qulun*
*Cah ilə miknətdə Qarunçə təvangər oldu, tut [23, s.74].*

**Məhtimquluda:**
*Suya, yelə hökmi keçən Süleyman,*
*Bax, onlardan nə nam qaldı, nə nişan,*
*Təşnə qalıb, yerin olsa çölüstan,*
*Dərya içrə mən İsgəndər oldum tut.*

*Yoldaş olsan dilə düşməz mur ilə,*
*Fərş tapmayan, bilə yatsan mar ilə,*
*İyrimi altı kərrə, yüz min ər ilə,*
*Qarun xəzinəsin ələ aldım tut [5, s.510].*

## Nəticə / *Conclusion*

Məhtimqulunun Nəvaidən təsirlənərək qələmə aldığı əsərlərinin sayı kifayət qədərdir. Bu da təsadüfi deyildir. Məhtimqulu dövrünün ən mütaliəli şairlərindən, Nəvai isə onun ən çox mütaliə etdiyi, öyrəndiyi şairlərdən biri olmuşdur. Məhtimqulunun əsərlərinin – siyasi, vətənpərvərlik, sufi məzmunlu şeirlərinin hərtərəfli təhlili göstərir ki, o, Nəvaidən çox təsirlənmiş və ədəbi yaradıcılığında ondan faydalanmışdır.

## Ədəbiyyat / *References*


1. Turkman edebiyyatinin tarixi. I tom. Ashgabat, “Ilim”, 1975.
2. İsa Həbibbəyli, İsmixan Osmanlı. Məhtimqulu Fəraqi və Azərbaycan. Bakı, “Elm və təhsil”, 2019.
3. Opisaniye Buxarskogo xanstva, sostavlennoyo N.Xanokovim, 1843.
4. Türkmen edebiyyatının tarıxı. II tom. 2-ji kitap. XVII asır edebiyatı. Redaktorlar: B.A.Qarrıyev, A. Meredov, M.Övezqeldiev. Aşqabat, “Ilım”, 1976.
5. Magtymguly. Eserler ýygyndysy. II jiltde. I jilt. Çapa taýýarlan: Annagurban Aşyrow; redaktor: R.Godarow. Aşgabat, “Ylym”, 2013.
6. Magtymguly. Saýlanan eserler. N.Aşyrowun we G.Kulyýewin redaksiýasy bilen. Aşgabat: Türkmenistan Döwlet neşirýaty, 1957.
7. Alisher Navoiy. Nasoyim ul-muhabbat, Tola asarlar toplami. On jildlik. Oninci jild. Nashrga tayyorlovchilar: S.Ganiyeva, C.Rafiddinov, Q.Ergashev, E.Ochilov. Toshkent: G.Gulom nomidagi nashriyot-matbaa ijodiy uyi, 2013.
8. Magtymguly. Eserler ýygyndysy. II jilt. Çapa taýýarlan: Annagurban Aşyrow; redaktor: R.Godarow. Aşgabat, “Ylym”, 2013.
9. B.A.Karriyev. Maxtumkuli i Navoi. Türkmenistan SSR IA-nıň xabarları (Jemqıetşilik ılımlarıň seriyası), 1972, № 4.
10. R.Mustakov. Maxtumkulu i Navoi. Türkmenistan SSR IA-nıň xabarları (Jemqıetşilik ılımlarıň seriyası), 1984, № 5.
11. Məhtimqulu Fəraqi. Seçilmiş əsərləri. Türkmən türkcəsindən Azərbaycan türkcəsinə çevirən, izahların, lüğətin müəllifi və nəşrə hazırlayanı İsmixan Osmanlı. Bakı, “Elm və təhsil”, 2014.
12. X.Abdillayev. Maxtumkulu i uzbekskaya literatura. Avtoreferat dissertachii, predastavlennoy na soiskaniya uchennoy stepeni kandidata filologicheskix nauk. Na pravax rukopisi. Ashxabad, 19689.

13. A.B.Çarıqulıyeva. Maqtımqulınıň tebiqata sınçılıqı. Türkmenistan SSR IA-nıň xabarları (Jemqıetşilik ılımlarıň seriyası), 1961, № 1.
14. R.Z.İnogamov. İz istorii uzbeksko-turmenskix literaturnix vzaimosvyazey. Avtoreferat dissertatsii na soiskaniye uchennoy stepeni kandidata filologocheskix nauk. Na pravilax rukopisi. Tashkent, 1968.
15. Kadir Hodjayev. Traditsiyi Alishera Navoi v turkmenskoy literature. Avtoreferat dissertatsii na soiskaniye uchennoy stepeni kandidata filologocheskix nauk. Na pravilax rukopisi. Ashxabad, 1978.
16. Tvorchiskiye svyazi uzbekskoy literature. Tashkent, «Fan», 1983.
17. Alishera Navoi. Hikhmatlar. Tuyplovchi va suzboshi muallifi Solix Mutallibov. Tashkent: G.Gulom nomidagi badiiy adabiyat nashriyati. 1968.
18. Alishera Navoi hikhmatlari. Suzboshi, tabdil, tarjima, izoxlar muallifi муаллифи va nashrga tayerlovchi: Komiljon Raximov. Тошкент: «Fan» nashriyati, 2019.
19. Atalar sözləri. Tərtib edəni və ön sözün müəllifi: Mətanət Yaqubqızı. Bakı: “Nurlan”, 2013.
20. Azərbaycan aşıq şeirindən seçmələr. İki cilddə. I cild. Tərtib edənlər: Axundov Ə., Abbaslı İ., İsmayılov H. Bakı, “Şərq-Qərb”, 2005.
21. Alisher Navoiy. Xazoyin ul-maniy (Gərayib us-siğər). Tola asaralar toplami. 10 jildlik. I jild. Nashrga tayyarlovchilar: Hamid Sulaymon, Sayfiddin Rafiddinov. Toshkent: G.Gulam nomidagi nashriyyot-matbaa ijodiy uyi, 2013.
22. Alisher Navoiy. Xazoyin ul-maniy (Nəvadir uş-şəbab). Tola asaralar toplami. 10 jildlik. II jild. Nashrga tayyarlovchilar: Hamid Sulaymon, Ibrohim Haqqul. Toshkent: G.Gulam nomidagi nashriyyot-matbaa ijodiy uyi, 2013.
23. Alisher Navoiy. Xazoyin ul-maniy (Bədayi ul-vəsət). Tola asaralar toplami. 10 jildlik. III jild. Nashrga tayyarlovchilar: Hamid Sulaymon, Sayfiddin Rafiddinov. Toshkent: G.Gulam nomidagi nashriyyot-matbaa ijodiy uyi, 2013.

## Махтумкули Фраги и Алишер Навои

**Исмихан Османлы**
Доктор философии по филологии, Институт литературы имени Низами Гянджеви.
Азербайджан.
E-mail: iosmanli59@yahoo.com

**Резюме.** Мыслитель-поэт тюркского мира Алишер Навои (1441-1501) - видный деятель, основавший собственную литературную школу при жизни. Сотни учеников этой школы воспользовались литературным наследием этого мастера поэта, создали прекрасные литературные образцы. Классический поэт туркменского народа Магтымгулы Пирагия был вдохновлен работами Навои с юных лет и занимал литературное место среди великих художников своего времени своими литературными произведениями. Сегодня влияние наследия Навои отчетливо ощущается как в лирических, так и в эпических произведениях Магтымулы, отличившегося среди уникальных произведений классических поэтов тюркского мира. Эта статья посвящена изучению влияния наследия Навои на творчество Махтумкули. Автор показал это влияние на примерах, взятых из произведений обоих поэтов.
**Ключевые слова:** Алишер Навои, Махтумкули Фраги, лирические стихотворение, эпическое творчество, литературные действие